No: 04 2025
https://doi.org/10.64400/ea25-4-04
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MİRZƏ ƏLƏKBƏR SABİRİN UŞAQ ŞEİRLƏRİNDƏ MİLLİ ÖZÜNÜDƏRK VƏ MAARİFÇİLİK İDEYALARI

**İlhamə AĞAZADƏ**
Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: iahmadova@inbox.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
M.Ə.Sabir, milli ideal, özünüdərk, ana dili, maarifçi şeir.

**XÜLASƏ**
Məqalədə milli özünüdərk, maarifçilik ideyaları Mirzə Ələkbər Sabirin uşaq şeirləri əsasında təhlil edilir. XIX əsrin ikinci yarısından etibarən Azərbaycan ictimai fikir tarixində xalqın taleyi, milli şüur, ana dilinə maraq və milli ideya anlayışları formalaşmağa başlamışdır. Sabir bu inkişaf prosesində klassik ədəbiyyat ənənələrini yaşadan satira ustası kimi çıxış etmiş, həmçinin uşaq poeziyasına misilsiz töhfələr vermişdir.
Tədqiqatın məqsədi şairin ana dilinə, təhsilə və maarifçiliyə çağırış ruhlu uşaq şeirlərini milli özünüdərk və azərbaycançılıq ideologiyasının təzahürü kimi qiymətləndirməkdir. “Molla Nəsrəddin”, “Dəbistan”, “Rəhbər”, “Məktəb” və digər nəşrlərdə müntəzəm dərc olunan satirik şeirlər Sabiri xalq arasında məşhur etmişdir. Onun uşaq poeziyası gənc oxucu üçün sadə, aydın və axıcı dildə təqdim olunmuş, milli şüurun formalaşmasına, mənəvi-əxlaqi dəyərlərin təbliğinə xidmət etmişdir.
Məqalədə metod olaraq Sabirin yaradıcılığı, dövrün ictimai-mədəni mühiti, uşaq poeziyasının funksiyaları və milli özünüdərk məsələləri faktoloji materiallar əsasında təsvir olunur və elmi təhlilə cəlb edilir. Sabirin şeirlərindən nümunələr gətirilir və bu nümunələrin ideya-bədii məzmunu şərh edilir. Sabirin milli özünüdərk, maarifçilik, dil, islam və cəmiyyət barədə fikirlərinin, ümumilikdə dünya-görüşünün ideoloji əsaslarının müəyyənləşdirilməsi konseptual-ideoloji yanaşmanın tətbiqinin göstəricisidir.
Şairin fikrincə, millət yalnız gənc nəslin elmə yiyələnməsi və maariflənməsi nəticəsində bəlalardan və fəlakətlərdən xilas ola bilər. Beləliklə, M. Ə. Sabirin uşaq poeziyası milli özünüdərk, ana dilinə bağlılıq, maarifçilik və milli şüurun güclənməsi baxımından Azərbaycan ədəbiyyatında əvəzsiz yer tutur və bu gün də aktualdır.

## GİRİŞ

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai fikir tarixində millətin və xalqın taleyinə münasibət, ana dilinə maraq, milli ideal və milli şüur anlayışları, eləcə də özünüdərk amili tədricən formalaşmağa başladı. Özünün hansı millətə mənsub olduğunu şüurlu olaraq anlayan ziyalılar xalqı birliyə, tərəqqiyə səsləyirdilər. Belə mütəfəkkirlərdən biri də o dövrdə yaşayıb yaratmış Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə - Sabir Şirvani olmuşdur. Yaradıcılığında milli ənənələrdən, folklordan və klassik poeziya irsindən bəhrələnən satira ustası uşaq ədəbiyyatının inkişafına da özünəməxsus töhfələr vermişdir.

## MATERİAL VƏ METODLAR

Tədqiqat materi kimi Mirzə Ələkbər Sabirin uşaq şeirləri seçilmişdir. Məqalədə metod olaraq Sabirin yaradıcılığı, dövrün ictimai-mədəni mühiti, uşaq poeziyasının funksiyaları və milli özünüdərk məsələləri faktoloji materiallar əsasında təsvir olunur və elmi təhlilə cəlb edilir. Sabirin şeirlərindən nümunələr gətirilir və bu nümunələrin ideya-bədii məzmunu şərh edilir. Sabirin milli özünüdərk, maarifçilik, dil, islam və cəmiyyət barədə fikirlərinin, ümumilikdə dünya-görüşünün ideoloji əsaslarının müəyyənləşdirilməsi konseptual-ideoloji yanaşmanın tətbiqinin göstəricisidir.

## ƏSAS HİSSƏ

M.Ə.Sabirin zəngin ədəbi-bədii irsi əsasən 1903-1911-ci illərdə qəzet, jurnal, məcmuə və dərsliklərdə çap olunmuşdu. “Molla Nəsrəddin” jurnalında və o dövrün digər mətbu orqanlarında “Nizədar”, “Çuvalduz”, “Hophop”, “Güləyən”, “Ağlar güləyən”, “Əbünəsr Şeybani”, “Çayda

çapan", "Qabaqda gedən zəncirli", "Məczub", "Yetim qızcıq", "Boynuburuq" və s. imzaları ilə müntəzəm surətdə dərc etdirdiyi satirik şeirlər onu sağlığında məhşurlaşdırmış və sevdirmişdir.

Sabirin yaradıcılığına böyük dəyər verən ən yaxın dostu A.Səhhət və M.Mahmudbəyov şairin ölümündən sonra onun əsərlərini ilk dəfə toplayaraq "Hophopnamə" adı ilə 1912-ci ildə çap etdirirlər. Böyük alim Yaşar Qarayevin təbirincə desək: o dövrdə ""Hophopnamə" – xalqların milli və siyasi özünüdərk kitabına, ictimai mübarizə əlifbasına çevrilir." (Qarayev, 2016, IV c, s. 252)

Şairin ana dilinə, təhsilə, maarifə çağırış ruhlu uşaq şeirləri milli mənlik şüur və məfkurəsinin formalaşmasına təkan vermişdir. "Hophopnamə"də "Uşaqlara hədiyyə" başlığı altında verilmiş "Məktəb şərqisi", "Məktəbə tərğib", "Elmə tərğib", "Uşaq və buz", "Yaz günləri", "Cütcü", "Məktəb uşaqlarına töhfə", "Məktəb şagirdlərinə töhfə", "Hörümçək və İpək qurdu", "Qarğa və Tülkü", "Ağacların bəhsi", "Təbib və xəstə", "Qoca bağban", "Qarınca", "Molla Nəsrəddinin yorğanı", "Uşaq və pul", "İsgəndər və fəqir", "Azarlı kəndçi", "Camuşçu və sel", "Molla Nəsrəddin və oğru", "Artıq alıb, əskik satan tacir", "Yalançı çoban" və s. şeirləri ilə xalqın oğul və qızlarında milli şüuru oyatmağa çalışmışdır. Kiçik yaşlı oxucunun anlaya biləcəyi sadə, aydın, rəvan bir dildə verilmiş nümunələrin gənc nəslin təlim-tərbiyəsində böyük rolu olmuşdur. Onun poeziyası oxucuları milli birliyə, mədəni yüksəlişə ruhlandırmışdır. Sabir anlayırdı ki, milləti bəla və fəlakətlərdən ancaq gənc nəsli dünyəvi ruhda təlim-tərbiyə edib, elm öyrətməklə xilas etmək olar:

Dərsi-hikmət ədası tərbiyədədir.
Hikmətin rəhnüması tərbiyədədir,
Millətin pişivası tərbiyədədir,
Tərbiyətlə keçir ümuri-cahan.
Hər işin ibtidası tərbiyədədir.
Cahilin də zavallı övlada
Şiveyi-narəvası tərbiyədədir. (Sabir, 2004, s. 65)

Maariflənməyə çağırış ruhunun üstünlük təşkil etdiyi nümunələr həm də gəncləri mənən saflaşdırmağa xidmət etmişdir. Tədqiqatçı Alxan Bayramoğlu "Bənzərəm bir qocaman dağa ki..." adlı araşdırmasında şairin yaradıcılığını belə səciyyələndirmişdir: "Sabir poeziyası, satirası da xalqın (millətin) özünüdərkinə, özünü təsdiqinə və milli istiqlalına mane olan, ona əngələ çevrilən cəhətləri, yəni ictimai düşüncə tərzini tənqid edirdi". (Bayramoğlu, 2010, s. 413) M.Ə.Sabirin uşaq əsərləri bu baxımından böyük əhəmiyyət daşımışdır.

Ədibin uşaq psixologiyasına hərtərəfli bələd olması onun müəllimilik fəaliyyəti ilə birbaşa bağlı olmuşdur. O, avamlıq və nadanlıq əlində qalan xalqının gözünü açmağa çalışmışdır. Maarifçi şair "Ümid", daha sonra "Nicat" məktəblərində şagirdlərinə klassik ədəbiyyatın mütərəqqi nümunələri ilə yanaşı, özünün qələmə aldığı əsərləri də öyrətmişdir. Onun satiralarında məktəbə, ictimai-mədəni və texniki tərəqqiyə, həmçinin milli-mənəvi özünüdərkə çağırış motivi aparıcı mövqeyə yüksəlmişdir. Milli oyanışa nail olmağın yolunu şair elmə və təhsilə yiyələnməkdə, dünya işlərindən baş çıxarmaqda görür:

Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zəmanıdır!
Oxumaq hər adəmin ədəbi-nişanıdır! (Sabir, 2004, s.59)

Şairin yaradıcılığında əski məktəb qaydalarının tənqidi də mühüm yer tutur. Tədqiqatçılar bu tip şeirləri maarifçi satirik şeirlər adlandırırlar. "Bilməm nə görübdür bizim oğlan oxumaqdan", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Uçitellər", "Müəllimlər syezdi", "Oxutmuram, əl çəkin", "Ürəfa marşı" və s. kimi satiralarında savadsızlığın bəlaları, məktəbə və oxumağa qarşı çıxanlar, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin mümkün olması sabiranə tərzdə göstərilir. Sadaladığımız nümunələr milli oyanışın, dirçəliş və tərəqqinin məktəbdən başladığını təlqin edir. Təyyar Salamoğlu "Sabirin milli intibah idealı" məqaləsində yazır: "Sabirin poeziyası Azərbaycan xalqının millət kimi təşəkkülü və formalaşması dövrünün poeziyası idi" (Salamoğlu, 2014, s. 23). Şairin bütün poeziyası haqında deyilmiş bu fikir, şübhəsiz ki, Sabirin uşaq şeirlərini də çevrələyir.

Sabirin mənlik şüurunun yetişməsinə, özünüdərkinə bir sıra amillər təsir etmişdir. Belə ki, XIX

əsrin sonu XX əsrin əvvələrində ölkədəki ictimai-siyasi durum, bundan başqa 1884-1886-cı illərdə Sabirin İran, Buxara, Səmərqənd və Kərbəla kimi Şərq ölkələrinə səyahəti, "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması və s. hadisələr şairin dünyagörüşünə böyük təsir göstərmişdir. M.Ə.Sabirin yaradıcılığında müasiri, "Molla Nəsrəddin" jurnalının redaktoru C.Məmmədquluzadənin də təsiri aydın görünür. Bu iki sənətkarın yaradıcılığında həm məfkurə, həm də ideya yaxınlığı olmuşdur. Bunu nəzərdə tutan professor Nizaməddin Şəmsizadə yazır: "Molla Nəsrəddin" Zaqafqaziyada və bütün Yaxın Şərqdə milli mənlik şüurunu oyatmağa nail oldu. Bu işdə, heç şübhəsiz ki, "Azərbaycançılığın qamus kitabı"nın, "Hophopnamə"nin müəllifinin müstəsna xidmətləri olmuşdu." (Şəmsizadə, 2008, s. 57) "Molla Nəsrəddin" jurnalı ilə eyni vaxtda nəşrə başlayan "Dəbistan", sonrakı illərdə "Rəhbər", "Məktəb" kimi uşaq mətbuatının nəşrə başlaması da "Şairəm, əsrimin ayinəsiyəm" deyən Sabiri sevindirmiş və bundan sonra daha böyük həvəslə gənc nəslin təlim-tərbiyəsinə, tərəqqi və inkişafına əlindən gələn xidməti göstərmişdir.

"Dəbistan" jurnalı nəşrə başlayanda M.Ə.Sabir uşaq ədəbiyyatı sahəsində ilk qələm təcrübəsi "Məktəb şərgisi" şeirini yazmışdır:

Məktəb, məktəb, nə dilgüşasən,
Cənnət, cənnət desəm səzasən;
Şadəm, şadəm təfərrücündən,
Əlhəq, əlhəq, gözəl binasən! (Sabir, 2004, s. 46)

Göründüyü kimi, şair məktəbə xalqın nicat yolu kimi baxmış, yatmış şüurları oyatmağa çalışmış, gənc nəsli inkişafa, tərəqqiyə səsləmişdir.

Sona Vəliyeva azərbaycançılıq ideologiyasına dair araşdırmasında milli özünüdərk və maarifçilik baxımından dilin rolunu xüsusi vurğulayaraq yazır: "...insanların keçmişi, bu günü, gələcəyi arasında körpü salaraq onları maarifləndirməkdə, milli özünüdərk hisslərini formalaşdırmaqda və onu sonrakı nəsillərə ötürməkdə milli dil ən mühüm vasitə hesab olunur". (Vəliyeva, 2011, s. 14) Bu fikir M.Ə. Sabirin yaradıcılıq istiqaməti ilə səsləşir; çünki şairin milli mənlik şüur və məfkurəsinin ilkin təzahürü də ana dilinə, təhsilə, maarifə çağırışla bağlı olmuşdur. O dövrün mütərəqqi mətbuat orqanlarında Sabirin müntəzəm dərc etdirdiyi məqalələr milli şüurun möhkəmlənməsində və xalqın milli özünüdərk səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır. H.Zərdabi, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Ağayev, Ə.Hüseynzadə, Ö.Faiq Nemanzadə, A.Şaiq və digər mütəfəkkirlər kimi M.Ə.Sabir də türkçülük ideyası ilə bağlı bir sıra məsələlərə münasibət bildirmiş, bu məfkurəni təbliğ etmişdir. Azərbaycançıl düşüncə sisteminin əsasında duran amillərdən biri - Azərbaycan dili Sabir yaradıcılığında xalqın varlığının və milli kimliyinin təminatçısı kimi yüksək qiymətləndirililir. Əlizadə Əsgərli bu istiqamətdəki fəaliyyətini belə xarakterizə edir: "Sabir bütün türkdilli xalqların həyatı və tarixi yolunda milli qəfləti, milli ayrılığı görüb əngəlləri göstərir, milli ittifaqa çağırırdı." (Əsgərli, 2015, s. 160) M.Ə.Sabir məqalə və çıxışlarında gənclərimizin ana dilində təhsil ala bilməməsinin səbəblərini göstərmiş, xalqdan uzaq düşən ziyalıları tənqid etmişdir. «Təzə həyat» qəzetində yazdığı bir məqalədə narahatlığını belə ifadə edirdi: "Nə təəssüflü bir hal! oxumuş cavanlarımız dəxi əksəriyyət ilə ana dilindən, əqaidi-diniyyələrdən lazımınca xəbərdar ola bilməyiblər. Əcaba, bu təqsir kimdədir, oxumuşlarımızdadırmı? Xeyr! Xeyr! Təqsir bizim məktəbsizliyimizdədir, üsuli-cədid üzrə təşkil olunmuş müntəzəm məktəblərimizin olmamasındadır…" (Sabir, ) Bu fikirlər göstərir ki, Sabirin maarifçilik fəaliyyəti və ana dilinə verdiyi əhəmiyyət Azərbaycan cəmiyyətində milli özünüdərkin formalaşmasında mühüm amillərdən biri olmuşdur.

Sabirin "Yaz günləri", "Uşaq və buz", "Cütçü", "Əkinçi" kimi kiçik həcmli uşaq şeirləri dilinin axıcılığı, oynaqlığı, səmimiliyi, rəvanlığı ilə uzun illər dərsliklərdə yer almışdır. "Yaz günləri" şeiri az sözlə dərin məna yaratma baxımından xüsusilə seçilir:

Gəl, gəl a yaz günləri!
İlin əziz günləri!
Dağda ərit qarları,
Bağda ərit qarları.

Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.

Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək. (Sabir, 2004, s.43)

Bu cür şeirlər uşaqlara bədii-estetik cəhətdən də gözəllik duyğuları təlqin edir, nikbinlik aşılayır.

Sovet dövründə yazılmış ədəbiyyatların bir qismində az qala Sabiri dinsiz, allahsız kimi təbliğ edirdilər. Əslində o, dinimizə ehtiram göstərmiş, islamın bütövlüyünə xələl gətirən, dindən xalqın əleyhinə istifadə edən mövhumat və fanatizmə qarşı mübarizə aparmış, xalqı milli birliyə yönləndirməyə səy etmişdir:

Doğru bir ittihad etməsək biz,
Birliyə etiqad etməsək biz,-
Bizdə şərti – üxüvvət olurmu?
Dini-islamə xidmət olurmu? (Sabir, 2004, s. 94)

Istiqlal şairi Xəlil Rza Ulutürk doğru olaraq Sabir poeziyasını "Azərbaycan xalqının milli xarakteri" kimi səciyyələndirmişdir. İnandığı həqiqət və ideal uğrunda ömrünün sonunadək mübarizə aparmış novator şairin yaradıcılığı xalqın həyatında bir dönüş yaratma gücünə malik olmuşdur. Sabir bu missiyanı dərk edərək yazırdı: "Məm vücudumda olan ətimi xalqımın yolunda çürütdüm. Əgər ömür vəfa etsəydi, sümüklərimi də xalqımın yolunda qoyardım." Bu ifadə Sabirin vətən və millətin taleyinə bağlılığının yalnız deklarasiya deyil, onun mənəvi dünyasının sarsılmaz mahiyyəti olduğunu təsdiqləyir. Şairin yaradıcılığından alınan hər bir misra da bunun bariz sübutdur:

Tərpənmə, amandır, bala, qəflətdən ayılma!
Açma gözünü, xabi-cəhalətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay! (Sabir, 2004, s.53)

Mənəvi-əxlaqi gerçəkliyin, eybəcərliyin satirik üsullarla əks olunduğu bu cür şeirlər ideya-bədii funksiyasına görə də fərqli səciyyə daşıyır. Sabirin, millətə "yat" xitabı əks mənada anlaşılır. ""Hophopnamə"dəki müxtəlif şeirlər iki məqsədin icrasına xidmət edirdi: şair, bir yandan millətə "yat" deyəni ifşa edir, ikinci tərəfdən bu "yat" kontekstində "oyan!" kimi səslənirdi. Mənfi tipin "yat" və şairin "oyan" xitabları eyni sövti tərkibdə səslənə bilirdi."(Qarayev, 2015, IIIcild, s. 334) Milli birliyə, oyanışa, tərəqqiyə mane olan qüsurlara kəskin tənqidi münasibət Sabiri təkcə vətənində deyil, Yaxın və Orta Şərqdə tanınmasına səbəb olmuşdur.

Sabir uşaq ədəbiyyatının yaranması və inkişafında yorulmadan xidmət göstərmiş sənətkarlardan olmuşdur.

## NƏTİCƏ

Aparılan araşdırmalar göstərir ki, M. Ə. Sabir Azərbaycan xalqının milli özünüdərk prosesində, maarifçilik ideyalarının formalaşması və yayılmasında müstəsna rol oynamış şəxsiyyətlərdən biridir. Onun yaradıcılığı yalnız satirik poeziyanın yüksəlişi ilə məhdudlaşmır, həm də milli kimlik, ana dili, maarifçilik və ictimai tərəqqi məsələlərinin bədii-fəlsəfi şərhini özündə ehtiva edir. Sabirin poeziyasında "oyanış", "maariflənmə", "milli birlik", "dil və kimlik" kimi anlayışlar aparıcı mövqe tutur və bu ideyalar onun bədii üslubunun əsas istiqamətini müəyyənləşdirir.

Şairin uşaq ədəbiyyatına verdiyi töhfələr milli şüurun formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. O, sadə, aydın və tərbiyəvi məzmunlu şeirləri vasitəsilə gənc nəslin maariflənməsinə, ana dilində təhsil almasının vacibliyinə, milli-mənəvi dəyərlərə bağlılığına ciddi təsir göstərmişdir. "Yat" və "oyan" motivlərinin satirik antitezaya çevrilməsi isə şairin cəmiyyətin sosial-mənəvi qüsurlarını ifşa etməklə yanaşı, milləti tərəqqiyə səsləmək məqsədini daşıdığını aydın göstərir.

Sabirin ana dili və milli kimlik məsələsinə həssas münasibəti, milli məfkurənin inkişafına verdiyi konseptual töhfələr, həmçinin türkçülük və azərbaycançılıq düşüncəsinin möhkəmlənməsində oynadığı rol onun yaradıcı irsinin tükənməyən aktuallığını göstərir. Bir əsrdən artıq zaman keçməsinə baxmayaraq, Sabirin ideyalarının bu gün də aktuallığını qoruması onun maarifçi mövqeyinin nə qədər dərin və davamlı olduğunu təsdiq edir. Beləliklə, M. Ə. Sabirin yaradıcılığı milli özünüdərk, milli

birlik və maarifçilik ideyalarının formalaşması baxımından istinad ediləcək əhəmiyyətli mənbə olmaqla yanaşı, Azərbaycan cəmiyyətinin ictimai-mədəni inkişafında dönüş yaradan mühüm ideoloji-sənət hadisəsidir.

## MƏQALƏNİN ELMİ YENİLİYİ

Məqalədə M. Ə. Sabirin uşaq şeirləri ilk dəfə olaraq milli özünüdərk, milli birlik və maarifçilik ideyalarının formalaşması kontekstində sistemli şəkildə təhlil olunmuşdur. Tədqiqat Sabirin ana dili və milli kimlik məsələsinə göstərdiyi xüsusi həssaslığı, milli məfkurənin inkişafına verdiyi konseptual töhfələri, həmçinin türkçülük və azərbaycançılıq ideyalarının möhkəmlənməsində oynadığı rolu yeni elmi prizmadan əsaslandırır. Araşdırma nəticələri Sabirin uşaq poeziyasının milli şüurun təşəkkülündə mühüm ideoloji-fəlsəfi funksiya daşıdığını ortaya qoymaqla onun yaradıcılığının müasir elmi diskursda tükənməyən aktuallığını təsdiqləyir.

## MƏQALƏNİN TƏTBİQİ ƏHƏMİYYƏTİ

Tədqiqatın nəticələri azərbaycançılıq ideologiyasının öyrənilməsində və uşaq ədəbiyyatının tədqiqində faydalı ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayramoğlu, A. (2010). Bənzərəm bir qocaman dağa ki... Bakı: Elm.
2. Cəfərzadə, Ə. (1989). Sabir. Bakı: Azərnəşr.
3. Əsgərli, Ə. (2015). Xəlil Rza Ulutürk. Bakı: Elm və təhsil.
4. Xəlil, Z., & Əsgərli, F. (2011). Uşaq ədəbiyyatı. Bakı: Pedaqoji Universitetin nəşri.
5. Qarayev, Y. (2015). Seçilmiş əsərləri (III cild). Bakı: Elm.
6. Qarayev, Y. (2016). Seçilmiş əsərləri (IV cild). Bakı: Elm.
7. Sabir, M. Ə. (2004). Hophopnamə (I cild). M. Məmmədov (tərt., ön söz, izahlar və lüğətin müəllifi). Bakı: Şərq-Qərb.
8. Salamoğlu, T. (2014). Azərbaycan ədəbiyyatının müasir problemləri: Sabirin milli intibah idealı. Bakı: E.L. NPŞ MMC.
9. Şəmsizadə, N. (2008). Seçilmiş əsərləri (I cild). Bakı: Elm.
10. Vəliyeva, S. (2011). Azərbaycançılıq: milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı: Azərbaycan nəşriyyatı.

## SUMMARY

## IDEAS OF NATİONAL SELF-CONSCİOUSNESS AND ENLİGHTENMENT İN THE CHİLDREN'S POETRY OF M. A. SABİR

**Ilhama Agazadeh**

This article examines the ideas of national self-consciousness and enlightenment reflected in the children's poetry of M. A. Sabir. Beginning from the second half of the nineteenth century, concepts concerning the destiny of the nation, national consciousness, interest in the mother tongue, and the national ideal began to take shape within the history of Azerbaijani public thought. During this period, Sabir emerged as a master of satire who preserved classical literary traditions while also making a significant contribution to the formation and development of children's literature. The aim of the study is to analyze the poet's children's poems—imbued with appeals to the mother tongue, education, and enlightenment—as an expression of national self-consciousness and the ideology of Azerbaijani identity. The satirical poems regularly published in "Molla Nasreddin", "Dəbistan", "Rəhbər", "Məktəb" and other periodicals brought Sabir wide public recognition. His poetry for children, written in a simple, clear, and fluent language, served to cultivate national consciousness and foster moral and ethical values among young readers. The research employs a descriptive–analytical method: Sabir's literary oeuvre, the socio-cultural environment of his time, the functions of children's poetry, and questions of national self-consciousness are examined on the basis of factual material and subjected to scholarly interpretation. Examples from Sabir's poems are analyzed to elucidate their ideological and artistic significance. The identification of Sabir's views on national identity, language, enlightenment, religion, and society—and the conceptual foundations of his worldview—demonstrates the use of a conceptual–ideological analytical approach. According to the poet, the salvation of the nation from

calamities and crises is possible only through the education and enlightenment of the younger generation. In this regard, the children's poetry of M. A. Sabir occupies a special and enduring place in Azerbaijani literature, playing a crucial role in strengthening national self-consciousness, affirming the value of the mother tongue, and promoting the principles of enlightenment. His legacy remains highly relevant even today.

**Keywords:** *M. Ə. Sabir, national ideal, self-consciousness, mother tongue, educational poetry*

## РЕЗЮМЕ

## ИДЕИ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ И ПРОСВЕТИТЕЛЬСТВА В ДЕТСКОЙ ПОЭЗИИ М. А. САБИРА

**Ильхама Агазаде**

В статье анализируются идеи национального самосознания и просветительства, отражённые в детской поэзии М. А. Сабира. Со второй половины XIX века в истории общественной мысли Азербайджана начинают формироваться представления о судьбе народа, национальном сознании, интересе к родному языку и национальном идеале. В этот период Сабир выступает как мастер сатиры, продолжатель классических литературных традиций, а также как автор, внесший значительный вклад в становление и развитие детской литературы. Цель исследования заключается в том, чтобы рассмотреть детские стихотворения поэта — проникнутые призывами к родному языку, образованию и просвещению — как проявление национального самосознания и идеологии азербайджанства. Сатирические произведения, регулярно публиковавшиеся в изданиях «Молла Насреддин», «Дабистан», «Rəhbər», «Məktəb» и других, принесли Сабиру широкую известность. Его стихи для детей, написанные простым, выразительным и доступным языком, способствовали формированию национального сознания и укреплению нравственно-этических ценностей молодого поколения. В статье применяется описательно-аналитический метод: творчество Сабира, общественно-культурная среда эпохи, функции детской поэзии и вопросы национального самосознания рассматриваются на основе фактического материала и подвергаются научной интерпретации. Приводимые в исследовании стихотворные примеры позволяют раскрыть идейно-художественное содержание произведений поэта. Анализ взглядов Сабира на вопросы национальной идентичности, языка, просветительства, религии и общества, а также выявление концептуальных оснований его мировоззрения подтверждают использование концептуально-идеологического подхода. По убеждению поэта, спасение нации от бедствий и кризисов возможно лишь через воспитание молодого поколения в духе науки, образования и просвещения. В этом контексте детская поэзия М. А. Сабира занимает особое место в азербайджанской литературе, играя важную роль в укреплении национального самосознания, утверждении ценности родного языка и развитии просветительских идей, оставаясь актуальной и в наши дни.

**Ключевые слова:** *М. Э. Сабир, национальный идеал, самосознание, родной язык, просветительская поэзия.*